A.İ.ƏLİYEVA
baş müəllim
e-mail: agabikaaliyeva47@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.014

MÜASİR DÖVRDƏ FRANSIZ DİLİNİN QLOBAL VƏZİYYƏTİ

Xülasə. *XX əsrin ortalarınadək diplomatiyada geniş istifadə edilən fransız dili indi ciddi təzyiqlə üzləşib. Son illərədək ingilis dilinə müqavimət göstərən fransız dili indi regional dillərlə də rəqabətə girib. Fransanın keçmiş koloniyaları tədricən yerli dillərə üstünlük verir. Nəticədə fransız dilindən istifadə azalır. Məqalədə fransız dilinin müasir vəziyyəti və üzləşdiyi çətinliklər (o cümlədən neokolonializm kontekstində) təhlil olunur, bu dilin qlobal səviyyədə istifadəsinə dair statistika verilir. Eyni zamanda fransız dilinin arealının daralma səbəbləri də izah edilir.*

Açar sözlər: *Fransa, Afrika, dil, frankofoniya*

2018-ci ildən indiyədək dünyada fransız dilində danışanların sayı 21 milyon nəfər artaraq 321 milyona çatıb. Bu da 5 il ərzində 7% artım mənasına gəlir [1]. Dil daşıyıcılarının artması başlıca olaraq Afrika qitəsi hesabına reallaşır. Səbəb Avropada 20 ildir davam edən demoqrafik böhrandır. Hazırda dünya üzrə 93 milyon insan fransız dilində orta və ali təhsil alır ki, bunun da böyük hissəsi "Qara qitə"nin payına düşür. Bu sahədə də son 5 ildə nisbi artım müşahidə edilib.

Lakin məsələnin əks tərəfi də var: qlobal miqyasda əhali artımına paralel olaraq təhsil-alanların sayı artsa da, beynəlxalq təşkilatlarda fransız dilinin mövqeləri son 10 ildə ciddi şəkildə zəifləyib. Daha doğrusu, ingilis dili Molyerin dilini ciddi şəkildə sıxışdıra bilib. Doğrudur, bir çox beynəlxalq təşkilatda fransız dili işçi dil statusunu saxlasa da, əksər müzakirələr ingilis dilində keçirilir, vacib sənədlər əsasən ingiliscə tərtib edilir. Bu sənədlərin fransız və digər dillərə tərcümə edilməsi müəyyən qədər vaxt alır. KİV də bir qayda olaraq ilk yayılan sənəddən istifadə etdiyi üçün fransızdilli sənədlər bir növ yararsızlaşır.

Eyni vəziyyət xaricdə fəaliyyət göstərən fransız şirkətlərinə də şamil oluna bilər. Fransızlar öz şirkətlərini vaxtaşırı olaraq ingiliscəyə yönəlməkdə və fransız dilini xaricdə yaymamaqda ittiham edirlər. Lakin hazırda nə qədər şirkətin xaricdə fransız dilindən istifadə etdiyi barədə dəqiq statistika yoxdur.

Fransız dilinin istifadə edildiyi ölkə və regionları nəzərdən keçirərkən tarixi aspektdən yanaşma zəruridir. Tarixə nəzər saldıqda istər Avropa, istərsə də Afrikada fransızdilli əhalinin sayının mütəhərrik olduğu görünür. Fransa və onun dənizaşırı əraziləri ilə yanaşı, Monako Knyazlığı, Belçika Krallığının Valoniya və Brüssel regionları, İsveçrənin böyük hissəsi, Kanadanın Kvebek və Ontario əyalətləri fransızca danışır.

Fransada mərkəzləşmə siyasəti 19-cu əsrdə regional dillərin və dialektlərin ictimai həyatdan və təhsil məkanından demək olar tamamilə sıxışdırılmasına səbəb oldu. Bununla da mərkəzləşmə siyasəti özünün zirvəsinə çatdı.

Hazırda regional dillərin bəziləri rəsmi statusa malik olsa da, bunun formal xarakter daşıdığı göz qabağındadır.

Fransadan kənardakı vəziyyətə gəlincə: Monako Knyazlığında fransız dili yeganə rəsmi dildir. Belçikanın Valoniya regionunda fransız dili yeganə rəsmi dil, Brüssel-Paytaxt regionunda iki rəsmi dildən biridir.

20-ci əsrdə Brüsseldə linqvistik vəziyyət kökündən dəyişib: əgər 1910-cu illərdə fransız dili əhalinin cəmi 10%-nin ana dili idisə, hazırda Brüssel sakinlərinin 90%-i frankofondur. Flandriya bölgəsindəki bəzi bələdiyyələrdə fransız dilinin xüsusi statusu var.

İsveçrə nisbətən aydın dil sərhədləri ilə dörd zonaya (almandilli, fransızdilli, italyandilli və romanşdilli zona) və linqvistik sərhədlərə bölünür. Lakin əksər hallarda inzibati və linqvistik sərhədlər üst-üstə düşmür. Konfederasiyanın 26 kantonundan dördü – Cenevrə, Vo, Neşatel və Yura – tamamilə fransızdilli, üçü - Friburq, Vale və Bern qismən fransızdillidir.

Belçika və İsveçrədə fransız dilində əhalinin nisbi azlığı danışır (Belçikada – təxminən 40%, İsveçrədə – təxminən 20%). Lakin ictimai və siyasi həyatda fransız dilinin çəkisi daha böyükdür.

Lüksemburqda əhalinin əksəriyyəti üçün ana dili olmasa da, ictimai həyatda və təhsildə fransız dili üstünlük təşkil edir. Son illərdə Lüksemburq (letzeburq) dilini bilməyən avropalı immiqrantların axını fransız dilinin mövqeyini daha da gücləndirir.

İtaliyanın Val d'Aosta muxtar regionunda fransız dili italyan dili ilə yanaşı rəsmi statusa malikdir. Lakin hüquq-mühafizə və məhkəmə istisnadır.

Əlcəzairdə isə bunun əksi baş verir. Hər 2 ölkə təhsil və rəsmi yazışmalarda tədricən ərəb dilinə keçsə də, ordu və polisdə fransız dili əsasdır.

Kanadada vəziyyət indiki kimi asan olmayıb. Ölkənin bütün ərazisi Britaniyanın müstəmləkəsinə çevrildiyi üçün fransızdilli əhali 150 ildən çox müddətə Fransadan faktiki olaraq təcrid olunmuşdu. 1960-1970-ci illərdə fransızdilli əhalinin öz hüquqları uğrunda ciddi mübarizəsi nəticəsində Kvebek əyaləti məhdud hüquqlar əldə etdi. Rəsmi olaraq əyalət ikidilli oldu. Həmçinin Kanadanın Nyu-Brunsvik əyalətində əhalinin təxminən 32%-i fransızca danışır. Fransız dilinin ingilisdilli Ontario əyalətində də xüsusi statusu var.

Fransız dilinin Kanada variantı çox sayda leksik və fonetik arxaizmin mövcudluğu ilə xarakterizə olunur. Bunun səbəbi ingilis dilinin və Amerika hindularının dillərinin müəyyən təsirinin hələ də qalmasıdır.

Afrikada isə xüsusi linqvistik vəziyyət müşahidə edilir. Fransa və ya Belçikanın keçmiş koloniyaları olan ölkələr, o cümlədən Böyük Səhra ətrafındakı ölkələrdə (Benin, Burkina-Faso, Qabon, Qvineya, Konqo Respublikası, Konqo Demokratik Respublikası, Kot-d'İvuar, Mali, Niger, Toqo) fransız dili əksəriyyətin ana dili olmasa da, yeganə rəsmi dildir. Digər ölkələrdə fransız dili rəsmi dildir və sosial-mədəni həyatda üstünlük təşkil edir, lakin yerli dillər əhalinin yarısı tərəfindən gündəlik danışıqda müxtəlif dərəcələrdə istifadə edilir. Buna misal olaraq Seneqalda volof, Malidə bamana, Mərkəzi Afrika Respublikasında sanqo, Burundidə rundi dilini göstərmək olar. Madaqaskarda diqlossiya vəziyyəti var: həm fransız, həm də malaqas dillərində əhalinin böyük əksəriyyəti danışır. Kamerunda fransız və ingilis dilləri rəsmi hesab edilsə də, fransız dili daha çox yayılmışdır. Əhalinin 80%-ə qədəri bu dildə danışır.

Ekvatorial Qvineyada isə bunun əksidir. İspan və fransız dilləri rəsmi statusa malik olsa da, fransız dilində danışanlar azlıq təşkil edir. Əhalinin 80%-dən çoxu ispan dilində danışır.

Çad və Cibutidə rəsmi dillər ərəb və fransız olsa da, çadlıların çox cüzi hissəsi fransızca danışır. Komor adalarında, ərəb və fransız dilləri rəsmi statusa malikdir. 2002-ci ildə yerli Komor dili milli dil elan edildi.

Ruandada xüsusi vəziyyət hökm sürür. Ölkədə 2003-cü ilə qədər rəsmi dillər kinyaruanda və fransız dili idi. Sonradan ingilis dili rəsmi dillər siyahısına əlavə edildi və hökumət fransız dilini cəmiyyətin bütün sahələrindən tədricən sıxışdırıb çıxarmaq siyasəti yeritdi. 2010-cu ildə təhsil müəssisələrində fransız dili tamamilə ingilis dili ilə əvəz olundu. Bu addım Fransa ilə münasibətlərin gərginləşməsi ilə izah olunur. Eyni tendensiya hazırda Niger və Malidə müşahidə olunur.

Lakin Afrika ölkələrinin daimi sakinlərin kiçik bir hissəsi fransız dilini özünün ana dili hesab edir. Bunlara misal olaraq mühacir avropalı koloniyaçıların nəslindən olanları və Livan əsilli qabonluları göstərmək olar.

Okeanın o tayında, Haiti Respublikasında rəsmi dillər yerli kreol dili və əhalinin 40%-ə qədərinin danışdığı fransız dilidir. Seyşel adalarında rəsmi dil statusunu fransız, kreol və ingilis dilləri daşıyır. Bundan əlavə, Sakit və Atlantik okeanda yerləşən bəzi ada dövlətlərində fransız dili ya rəsmi, ya da ünsiyyət dili funksiyası daşıyır.

Fransanın dənizaşırı ərazilərində rəsmi və tədris dili fransızcadır. Bu ərazilərdə yaşayan yerli xalqların heç biri öz ana dillərində təhsil almaq hüququ əldə edə bilməyib. Yeri gəlmişkən, bu məsələ Bakıda keçirilən beynəlxalq tədbirlərdə müzakirə edilib [3].

Məqrib ölkələrində (Əlcəzair, Tunis, Mərakeş və Mavritaniya), eləcə də Livanda fransız dili rəsmi statusa malik olmasa da, təhsil, ordu və polis sistemində bu dildən geniş istifadə edilir.

Vaxtilə Fransa müstəmləkəsi olan Hind-Çin ölkələrində (Vyetnam, Laos və Kamboca) fransız dilinin az yayılmasını isə SSRİ amili ilə izah etmək olar. Hər 3 ölkə 60-cı illərdə müstəqillik əldə etdikdən sonra SSRİ-yə yönəldi və sosialist idarə üsulunu seçdilər. SSRİ (hazırda Rusiya) və Çin kimi iki nəhəngin ölkəyə girməsi fransız şirkətləri ilə birgə fransız dilinin də sıxışdırılıb çıxarılması ilə nəticələndi. Bununla belə, hər 3 ölkədə fransız dili tədris olunur, bu dildə qəzetlər və saytlar fəaliyyət göstərir.

Yekunda bir məsələyə də diqqət yetirmək yerinə düşər. Son bir ildə Afrikada baş verən anti-Fransa çıxışlar Parisin keçmiş müstəmləkələrdə mövqelərini zəiflədib və nəticə etibarilə dilin də arealı daralıb. Niger, Mali və Burkina-Fasoda xalqlar rəsmi yazışmalar və tədrisin milli dillərdə aparılması təşəbbüsü ilə çıxış ediblər. Yeni hökumətlər rəsmi Parislə gərginlik fonunda bu təşəbbüsləri dəstəkəyib. Artıq hər 3 ölkənin konstitutsiyasında fransız dilinin statusu rəsmi dildən işçi dil səviyyəsinə endirilib. Bu addımlar Makron hakimiyyətinin ciddi narazılığına səbəb olsa da, rəsmi Paris heç bir qabaqlayıcı tədbir görə bilməyib.

Lakin bir məsələni də unutmaq olmaz. Yerli dillərin fransız dilini əvəzləməsi böyük vaxt aparacaq. Təqribən 150 ildir davam edən sistemi bir neçə il ərzində dəyişmək mümkün deyil. Kolonializm dövründə bütün sənədləşmələr fransızca aparılıb. Ötən əsrin 50-60-cı illərində Fransa və Belçikadan müstəqilliyini əldə edən Afrika ölkələri fransız idarəetmə sistemi ilə yanaşı, dövlət işlərində və təhsildə fransız dilini də saxladılar.

Bütün bu proseslər fransız dilinin tədris arealının da daralması ilə nəticələnir. Fransız dilinin dövlət dili olmadığı ölkələrdə bu dilin tədrisi də ildən-ilə azalır. Keçmiş SSRİ məkanı da bu xüsusda istisna deyil.

Müasir neokolonializm dövründə isə Molyerin dilindən imtina geri dönməyən prosesə çevrilib. Hadisələrin gedişatı göstərir ki, yaxın onilliklərdə Afrikada frankofoniyanın arealı ciddi şəkildə daralacaq. Beynəlxalq təşkilatlarda ingilis dili tərəfindən sıxışdırılan fransız dili, Afrikada yerini tədricən yerli dillərə verəcək. Hazırda 3 ölkə – Niger, Mali və Burkina-Faso yaxın illərdə konstitusiyaya yenidən baxaraq fransız dilinin işçi dil statusunu da ləğv etmək istəyir [2]. Afrika ölkələrinin yeni rəhbərləri fransız dilindən birbaşa imtinanın mümkün olmadığını etiraf edirlər. Proses daha az ağrılı olsun deyə bütün ölkələr fransız dilindən imtinanı tədricən, mərhələli şəkildə reallaşır. Bu bir tərəfdən yerli dillərin idarəçiliyə tətbiqinin çətin olması ilə bağlıdırsa, digər tərəfdən Afrika ölkələrdə elitanın müəyyən qisminin fransız dilindən imtina etməmək istəyi ilə əlaqədardır.

İşin elmi nəticəsi. XXI əsrdə fransız dilinə təzyiqlər kifayət qədər artıb. Əgər beynəlxalq arenada fransız dili ingilis dili ilə rəqabətdə uduzursa, keçmiş müstəmləkələrdə də artıq yerli dillər fransız dilini üstələyir.

İşin elmi yeniliyi. Fransız dilindən imtina bir çox ölkədə ciddi hal alıb. Lakin bu prosesin nəticələrindən danışmaq hələ ki, tezdir.

İşin tətbiqi əhəmiyyəti. Bu məqalə fransız dilinin tədrisi ilə məşğul olanlar, həmçinin fransız dilinin müasir vəziyyətini araşdıranlar üçün məlumat mənbəyi ola bilər.

Ədəbiyyat

1. https://www.francealumni.fr/fr/news/francophonie-321-millions-de-locuteurs-francais-dans-le-monde-7794#:~:text=Avec%20321%20millions%20de%20locuteurs,croissance%20se%20ralentit%20un%20peu.
2. https://azertag.az/xeber/nigerde_fransiz_liseyi_baglanir-2955237
3. https://apa.az/xarici-siyaset/baki-tesebbus-qrupunun-ofisi-acilib-foto-791551

A.I.Aliyeva

The Global Situation of the French Language in Modern Times

Summary

The French language, which was widely used in diplomacy until the middle of the 20th century, is now under serious pressure. The French language, which resisted the English language until recently, has now entered into competition with regional languages. Former French colonies are gradually giving preference to local languages. As a result, the use of French is declining.

The article analyzes the current state of the French language and the challenges it faces, and provides statistics on the use of this language at the global level. At the same time, the reasons for the narrowing of the area of the French language are also explained.

Key words: *France, Africa, language, francophonia*

А.И.Алиева

Глобальное положение французского языка в новейшее время

Резюме

Французский язык, широко использовавшийся в дипломатии до середины XX века, сейчас находится под серьёзным давлением. Французский язык, который до недавнего времени противостоял английскому языку, теперь вступил в конкуренцию с региональными языками. Бывшие французские колонии постепенно отдают предпочтение местным языкам. В результате использование французского языка сокращается.

В статье анализируется современное состояние французского языка и проблемы, с которыми он сталкивается, а также приводится статистика использования этого языка на мировом уровне. При этом также объясняются причины сужения ареала французского языка.

Ключевые слова: *Франция, Африка, язык, франкофония*

Rəyçi: f.f.d., prof. Ü.Z.İbrahim

Redaksiyaya daxil olub: 15.04.2024